Şərqiyyə Məmmədli [54]

# RƏŞİD BƏY ƏFƏNDİZADƏNİN POEZİYASI ƏNƏNƏ VƏ NOVATORLUQ MÜSTƏVİSİNDƏ

Ötən əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı tarixində maarifçi realist şeirdə ənənə və novatorluq problemindən bəhs edərkən Rəşid bəy Əfəndizadənin poeziyasına və dövrün uşaq mətbuat orqanlarında yayınlanan poetik nümunələrə diqqət yetirilməsiolduqca zəruridir. Azərbaycan realist-maarifçi ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan, pedaqoji sahədə olduğu kimi, elmi-bədii fəaliyyətində mühüm uğurlar qazanan Rəşid bəy Əfəndizadə realist ədəbiyyatın inkişafına xüsusi əhəmiyyət vermiş, maarifçilik hərəkatının öncüllərindən olmuşdur. O, bir maarifçi olaraq həm elmi-nəzəri, həm də poetik əsərlərində bədii sözün təsir qüvvəsindən istifadə etməklə xalqı qəflət yuxusundan oyatamağı, cəhalətdən xilas etməyin yollarının göstərməyi özünün yazıçılq və vətəndaşlıq vəzifəsi hesab etmişdir. İndiyədək Rəşid bəy Əfəndizadə haqqında bəzi monoqrafik araşdırmalar [2; 8] aparılsa da, onun yaradıcılıq yolunun fərqli problemlər kontekstində çağdaş təfəkkür işığında araşdırlmasına ehtiyac duyulur.

Rəşid bəy Əfəndizadənin poetik irsinin təhlili şairin *"yaşadığı epoxanın şəxsiyyətinə yansıyan ədəbi, sosial və psixoloji təsirləri üzə çıxarılması*" [10, s.24] baxımından son dərəcə önəmlidir. Çünki müəllifin yaradıcılığı həmçinin yaşadığı dövrün poetik salnaməsi kimi mühüm dəyər daşıyır.Şübhəsiz ki, ədəbi yaradıcılıqda ən aparıcı hesab edilən üslubun da ədəbiyyatın bəlli bir dönəmində mövcud olan digər bədii üslublarla kəsişən, ortaqlaşan məqamlarının mövcud olduğu sirr deyildir [12, s.25; 13, s.148].XX yüzilin əvvəllərində, ölkənin *"sosial, siyasi, ədəbi və kültürəl həyatında dərin izlər buraxmış"* [9, s. 284] bir dönəmdə yazıb-yaradan, poetik əsərlərində, xüsusilə maarifçi şeirlərində daha çox xalq şeiri ənənlərinə bağlı olan, *"Hər millətin doğma dilində özünəməxsus ədəbiyyatı vardır"* [3, s. 44] söyləyən Rəşid bəy Əfəndizadə bədii ədəbiyyatı xalqın həyat və məişətinin aynası, salnaməsi hesab edərək yazırdı: "*Hər bir el yaşadıqca tarixi-həyati gedişində təsadüf etdiyi hadisələri, qəziyyələri, təcrübələri, səadətli və fəlakətli halları qeyd etmək məcburiyyətindədir. Bu, el içərisində qeyd olunmuş əsərlər o elin ruhunu, zövqünü və təbii incəliyini oxşar və ağla zövq verir və bununla bərabər o, elin adət və adabını tərbiyələndirir. Bu səbəblərə görə, o əsərlərə el ədəbiyyatı deyilir. El ədəbiyyatı el içindən doğar, el içində təkamül edər. El yaşadıqca ədəbiyyatını da yaşadar. İrs kimi nəsildən-nəslə keçər. Hər nəsil öz əsrində öz ədəbiyyatından feyz alar"* [3, s.23].

Ədəbiyyatının yaranmasında *"millətin yaşamasının əsas vasitəsi olan ana dili"*nin [7, s.233] rolunu yüksək qiymətləndirən Rəşid Əfəndizadə bədii sənətdətəqlidçiliyi XX yüzilmillipoeziyasının qüsuru sayır, təqlidçi şairləri ictimai idealdan məhrum olmaqda ittiham edir, bu şairlərin yaradıcılıqlarının məzmunu və mündəricəsi haqqında aydın təsəvvür yaratmaq üçün diqqəti onların əsərlərində təsvir olunan həyat materialına cəlb edərək yazırdı: *"Qaragöz və qaraqaş sənəmləri tərif və tövsif edən və ya həcvdən ibarət olan... məxlut şeirlərin meydan almağı əxlaq nöqteyi-nəzərindən bilkülliyə rəzalət və səfahətdir"* [4, 147].Şairi yaşadığı mühitin məhsulu hesab edən R.Əfənizadə şeirdə təbii hisslərin təsviri və üslub gözəlliyini əsas şərtlərdən sayır, lakin mənanın, məzmunun kamilliyini və dəqiqliyini poeziyanın başlıca keyfiyyət kimi nəzərdə tutur, şeirdə məzmunun birinci, formanın ikinci olması fikrinə haqq qazandıraraq deyirdi: "*Yaxşı yazmaq və ya yaxşı fikir eyləyib hiss eləməyin özü məhz ibarəni gözəl yetirmək ilədir. Yazdığımız bir mətləbdə şübhəli bir nöqtəni də buraxıb keçməmək lazımdır. Buna binaən hər şeyi kamalınca qanıb fikir və xəyalında toplayandan sonra yazmaq və bəyan eləmək lazım gəlir. Yaxşı fikirləşən insanın zehninə lüğət və ibarələr çox asanlıqla gəlir"* [4, s.158].

Poeziyanın əsas xüsusiyyətini müəyyən nizam və ölçüyə tabe olmaqda görən, vəzni şeiri təşkil edən əsas element hesab edən Rəşid bəy Əfəndizadə qafiyə və rədifi bir-birilə six əlaqədə götürür və bunları şeiriyyəti təmin edən vasitə kimi dəyərləndirir. Klassik şeirin qəzəl, məsnəvi kimi janrlarının fonunda misra, beyt, fərd, mətlə, məqtə və s. haqqında ədibin mülahizələrindən görünür ki, o, ədəbiyyatın nəzəri məsələlərinə dərindən bələd olmuşdur.

Rəşid bəy Əfəndizadə "El ədəbiyyatı və yaxud el sözləri" məqaləsində şifahi xalq yaradıcılığını el ruhunun və mənəvi dünyasının bədii ifadəsi adlandıraraq xalq yaradıcılığını əks-sədaya bənzədir və yazırdı: *"Bu ədəbiyyatın bəzi nümunəsi el həyatndan doğmuş əks-sədadır. Elin zülm altında əzildiyi zaman qəlbindən çıxardığı ah-fəryad və fəğanıdır ki, el ədəbiyyatında zikr olunur. Və yaxud fərəh və qəh-qəhələrdən nəşət tərənələrdir ki, insanın ruhunu həzləndirir"* [4, s. 25].

Nəzəri-estetik mülahizələrini bədii yaradıcılığı ilə məharətlə uzlaşadırmağı bacaran Rəşid bəy Əfəndizadənin "Uşaq bağçası" və "Bəsirətül-ətfal" dərslikləri Azərbaycan maarifçilik ədəbiyyatının, ədəbi və pedaqoji fikrinin inkişafı tarixində, xüsusilə milli uşaq ədəbiyyatı yaratmaq sahəsində mühüm hadisələr idi.

Rəşid bəy Əfəndizadənin maarifçi şeirləri xalq ədəbiyyatından gələn bir cəhət kimi hər cür mücərrədlikdən uzaqdır. Bu şeirlərdə oxucuya tanış olmayan qeyri-real heç nə yoxdur və ətraf mühitin müşahidəsindən doğan təəssüratlar bu əsərlərin əsas məzmununu təşkil edir. Müəllifin maarifçi şeirlərini mövzu və ideyasına görə, əsasən, aşağıdakı qruplara bölmək olar: 1) təbiət təsvirli şeirlər; 2) əxlaqi-didaktik şeirlər; 3) dini məzmunlu şeirlər.

Maarifçi şeirləri janr və formaca əlvan olan R.Əfəndizadəədəbi ənənədən gələn xüsusiyyət kimi, nəğmələrə daha çox üstünlük vermiş, onları novatorcasına zəmanənin tələbinə uyğunlaşdırmışdır. Müəllifin "Yağış" və "Durna" şeirləri təbiətin konkret fəsillərinin təsvirinə həsr olunmaqla, bu əsərlərdə uşaq və təbiət münasibətinin gözəl mənzərəsi yaradılmışdır. "Durna" şeirində kədər motivləri daha çox hiss olunur.

*Ay havada uçan, durna,*

---

[54] Filologiya üzrə fəlsəfə doktoru

*Bizi qoyub qaçan, durna,*
*Get, xoş gəldin, səfa gəldin,*
*Gələcəksən haçan, durna?*[1, s. 40].

Durnalanı köçməsi uşağı kədərləndirib narahat edir. O, köç edən quşlara yaxşı yol, uğurlu uçuş arzulayır. Lakin onların köçməsi ilə də barışa bilmir.Quşların vətənə qayıtmalannı arzulayır.

*Getmə, getmə, gözüm, durna!*
*Sana var bir sözüm, durna!*
*Sən gedəndə necə sənin,*
*Həsrətinə dözüm, durna?*[1, s. 41].

Uşaq təsəvvürlərini əyaniləşdirməyə xidmət edən "Yağış" şeiri nikbin motivlərlə zəngindir.Yağışın yağmasından uşağın duyduğu fərəh şeirin əsas məzmununu təşkil edir.

*Ey aləmin canı yağış!*
*Yağ, islat dünyanı, yağış!* [1, s.72].

Şairin maarifçi şeirlərində peyzaj lirikası xüsusi yer tutur. Bu baxımdan "Bahar", "Bahariyyat", "Payız fəslində" və başqa şeirlər xüsusi diqqət çəkir və bu əsərlərdə fəsillərin xüsusiyyətləri, onların dəyişmə prosesi, məişətdə yeri və faydası barədə məlumat verilir. Bu qəbildən olan əsərlərdə mövsüm nəğmələri ilə yanaşı, Şah İsmayıl Xətayinin "Dəhnamə" poemasının "Bahariyyə" bölümünün də təsirini hiss etmək olur. Şair "Bahar" şeirində baharın gəlişi ilə təbiətin kəsb etdiyi gözəllikləri dəqiq seçilmiş detallarla təqdim edir, gözəl mənzərə yaradaraq yazır:

*Bahar oldu, dağı-daşı qızardıb,*
*Qıpqırmızı qızılgüllər açıldı.*
*Çəmən yaşıllaşıb hər yerdə, yurdda.*
*Bənövşələr, qərənfillər açıldı* [1, s. 47].

Rəşid bəy Əfəndizadə baharı ümumi şəkildə yox, konkret məqamlarını və lövhələrini tərənnüm etməklə təqdim edir. Şeirdə dağlarla əhatə olunmuş düzlər boyu uzanan taxıl zəmiləri, açılan qönçə və sünbüllərin qoynunda quşlanı cəh-cəh vurması, dağın bir tərəfinə buludun çökməsi, bir tərəfində isə havanın açıq görünməsi təsvir olunur. Rəşid bəy Əfəndizadə təbiəti sadəcə tərənnüm etməklə kifayətlənmir. Onun fikrincə, təbiət ona görə gözəldir ki, insanların rifah, xöşbəxtlik mənbəyidir.

*Bir yanda zəmi girdəsi, can suyun üstə,*
*Hər kəs bir işə, xalq çıxıb dəstəbədəstə.*
*Bir yanda çoban ney çalır arxası üstə,*
*Bir yanda da cütçü oxuyur yaxşı şikəstə,*
*Hər yanda səda, xürrəmü-xəndan, nə gözəldir!* [1, s. 49].

Rəşid bəy Əfəndizadənin "Tənbəl", "Nəsihət", "Ağlağan uşaq", "Ananın lay-laysədası" şeirlərində didaktik məzmun qüvvətlidir və bu qəbildən olan əsərlərdə xalq ədəbiyyatı ilə yanaşı, klassik ədəbiyyat, xüsusilə Sədi Şirazinin "Gülüstan" əsərindən gələn bəzi mötivləri də görmək mümkündür. Bu şeirlərdə şair uşaqların təbiətindəki bəzi naqis cəhətlərə diqqət yetirir..

Müəllifin ideyaca Seyid Əzim Şirvaninin maarifçi şeirləri, xüsuilə "Oğluma nəsihət" əsəri ilə yaxından səsləşən "Nəsihət" şeirində məktəbə, elm öyrənməyə çağırış əsas motivdir. Müasir mövzuda yazılmış bu şeir əsrin tələbləri ilə həmahəngdir. Şair təhsilin müasir həyatdakı əhəmiyyətini ön plana çəkir, onu insan şəxsiyyətinə şərəf gətirən amil hesab edir. Ata oğlunu məktəbə həvəsləndirir. Atanın nəzərində məktəb kamal, ağıl mənbəyidir. O, oğlunu onun nemətlərindən bəhrələnməyə çağırır. "Tənbəl" şeirində şair tənbəlliyi bədbəxtlik, "qəflət yuxusu", "yaman gün" adlandırır.

*Bu tənbəllik pis adətdir,*
*Çək əl bundan, xəcalətdir* [1, s. 64].

Rəşid bəy Əfəndizadənin poetik irsində böyükyaşlı uşaqlar üçün yazdığı şeirlər də xüsusi yer tutur. Bunlar kiçikyaşlı uşaqlar üçün yazdığı şeirlərdən əsaslı surətdə fərqlənir. Bu fərq onların mövzularında, janrında, üslubunda və dilində açıq surətdə müşahidə olunur. Təbiət mövzusunda yazdığı şeirlərində olduğu kimi, azyaşlı uşaqlar üçün yazdığı əxlaqi-didaktik şeirlərində də Rəşid bəy Əfəndizadə xalq şeiri formalarından məharətlə bəhrələnmişdir. Müxəmməs şəklində yazılmış "Şagirdlərin müəllimlərinə bayram təbriki" şeirində və xoş arzular ifadə olunur:

*Xuda min böylə bayrama çıxartsın,*
*Məğdur ömrünü min qat uzatsın,*
*Sənin imdadına həqq özü çatsın,*
*Bizimçün həqqü səyin gün-günə artsın,*
*Qoyasan ad, bayramın mübarək!* [3, s. 72].

Rəşid bəy Əfəndizadənin "Elmin şərafəti", "Uşaq və ayna", "Sailliyin rəzaləti" və s. şeirləri uşaqların əxlaqının, şəxsiyyətinin formalaşmasına həsr olunmuşdur. Müxtəlif mövzularda yazılmış bu şeirlərdə şair yeni insan tərbiyə edib yetişdirmək üçün gərəkli olan məsələlərdən bəhs edir. "Elmin şərafəti" şeirində şair elmi insana insanlıq ləyaqətini öyrədən, onu təkmilləşdirib kamilləşdirən vasitə adlandırır. Rəşid bəy Əfəndizadə uşaqlıq illərini elm öyrətmək üçün ən yaxşı və münasib məqam hesab edir.

*Fürsət dəmidir, cavan uşaqlar!*
*Get məktəbə hər zaman, uşaqlar!* [3, s. 26].

Rəşid bəy Əfəndizadə uşaqlara vətən məhəbbəti hissini aşılamağı zəruri hesab edir və Məhəmməd peyğəmbərin (s) məşhur "Vətəni sevmək" imandandır kəlamı ilə səsəlşən "Vətən məhəbbəti" şeirində yazırdı:

*Vətəni sevmək müsəlman millətinə şərti-imandır,*
*Vətən gör, nə gözəl şeydir ki, şərən hübbi-taətdir* [3, s. 40].

Rəşid bəy Əfəndizadə vətəni sevməyi, vətənə bağlanmağı hər bir insan üçün borc, vətəndaşlıq əlaməti sayır.Qürbət ölkələrə səyahət şairin fikrincə yaxşı işdir.Lakin o da vətənin abadlığı işinə kömək etməlidir. Yəni yad ellərə edilən səyahətdən əldə edilən təcrübə vətənin tərəqqisinə xidmət göstərməlidir. R.Əfəndizadənin maarifçi şeirləri bütövlükdə uşaq və gənclərə ünvanlanmışdır.Şair o mövzulara müraciət edirdi ki, onlanın məktəb vasitəsilə təbliğinə ehtiyac var idi və bu qəbildən olan əsərlərində sənətkar daha çox İslami ədəyərlərin təbliğinə və "Quran" mötivlərinə üstünlük verirdi. Bu baxımdan onun "Mədhi-Rəsulullah səlləllahu ələyhi və alehu səlləm", "Arzu", "Ədəb", "Təcdidül-iman", "Vəsfi-məscid", "Ömrün nəticəsi", "Padşaha dua" və s. şeirləri səciyyəvidir.

Müəllifin "Arzu" adlı şeirində islam dünyasınınçağdaş vəziyyəti təsvir olunur. Şairin dilə gətirmək istədiyi mətləblər islam aləminin düçar olduğu siyasi fənalıqlardır. "Xaliq də bir, peyğəmbər də bir, "Quran" da bir"dir. Lakin İslam "bu şumun əlindən" tənəzzülə uğramışdır. O, İslam birliyinin yoxluğundan şikayət edir, uşaqları "ittihadi-ıslam" məfkurəsinə dəvət edərək yazır:

*İslam içində yoxdur üxüvvət nişanəsi,*
*Məcmu hirsü büxl və riya... həsrətindəyəm.*
*İndi hamano rişteyi-islam çak olub,*
*Düşmüş araya gör nə niza, həsrətindəyəm* [3, s. 56-57].

Rəşid bəy Əfəndizadə İslam dünyasının keçmiş təntənəli dövrünü və tərəqqi günlərini yada salır və onların geriyə dönüb bərqərar olmasını arzulayır.Şairin poeziyasında əxlaq, tərbiyə məsələləri xüsusi mövqe tutur.Şair bu işdə qadınların roluna yüksək əhəmiyyət verirdi. O, haqlı olaraq hesab edirdi ki, hər bir cəmiyyətdə tərbiyə, nəsil və övlad yetişdirmək işi qadınların fəaliyyəti ilə bağlıdır. Ona görə sağlam cəmiyyət qurmaq, ona yeni insan yetişdirmək istəyən xalq, birinci növbədə, qadınların mövqeyini bilməlidir.

Şair "Bir qızın sualı", "Qızlara vəsiyyət", "Qızlara xitab", "Fərsiz övlada nəsihət" şeirlərində qız uşaqlanın tərbiyəsilə əlaqədar məsələlərə geniş yer ayırırdı. "Bir qızın sualı" şeirinin əsas tənqid hədəfi qadın təhsilinin qarşısını alan mürtəce ruhanilərdir. Şair cəmiyyətin sağlam inkişafından ötrü təhsilin oğlanlarla bərabər qızlardan ötrü də zəruri olduğu fikrini isbata yetirmək üçün dialoq üsulundan istifadə edir. Qız insani hüquqlarını bəyan edərək molladan soruşur:

*–Nə üçün oğlan elm alır yalqız?*
*Nə olar biz də elm öyrənsək,*
*Oxuyub əmri-şərimizi bilsək.*
*Elm insan üçün şərafətdir,*
*Alim olmaq bir özgə nemətdir* [5, s.9].

Molla qızın fikirlərini rədd edir və isbata yetirməyə çalışır ki, elm oxumaq, savad almaq qızlara haramdır. Qız mollanın qadın təhsili haqqında qənaətlərini nəinki yanlış, hətta insafdan uzaq, şəriət qanunlarma zidd hesab edir və deyir:

*Məgər insan deyildir arvadlar?*
*Mərifətdən neçün kənar tutular?*[5, s.9].

"Avam qalmaq xətadır" şeirində Rəşid bəy Əfəndizadə qadınların cəmiyyətdə mövqeyinin bərpası, təhsilə və ictimai işlərə cəlb olunması ideyasını irəli sürür. Hacər, Sara, Məryəm, Əminə, Xədicə, Zəhra və b. adları çəkir ki, bunlar peyğəmbərlərlə bağlı qadınlardır:

*Var neçə şanlı, ali arvadlar,*
*Çox fəzilətli, çox böyük zatlar.*
*Hər biri baqəyat sahibəsi,*
*Məzhəri-mərifət olub hərəsi* [5, s. 8].

R.Əfəndizadə qızların məktəbə cəlb olunması işinə cəmiyyətin nizama salınması, ahəngdar inkişafının təmin olunması kimi baxır.Şairə görə, zəmanə dəyimiş, oğlanlar təhsil alıb uca məqamlar qazanmışlar.Onlar ailə qurarkən öz səviyyə və mövqelərinə müvafiq yoldaş axtarırlar.Savadsız qız onları təmin etmir, digər millətlərdən olan qızlarla ailə həyatı qurmalı olurlar.

*Kimə lazımdı qız qala nadan,*
*Belə heyvanı almaz elmi olan,*
*Di gözüm, get oxut qız övladın,*
*İstər isən ki, batmaya adın.*[5, s. 9].

Müəllifin "Qızlara vəsiyyət" şeirində qızların təhsil alması İslam dünyasının dirçəlişi və tərəqqisinin əsas şərtlərindən biri hesab edilir.Şairə görə, təhsili olmayan avam qadın doğub avam uşaq tərbiyə edəcək, onun nəticəsi isə bütün cəmiyyət üçün zərərli olacaqdır.Şair bu fikirdə idi ki, avam ananın uşaq doğubböyütməsi cəmiyyətin başdan-başa savadsızlığına, nadanlığına səbəb olacaqdır.Beləliklə, bu cür savadsız qadınlardan ibarət xalqlar dünyanın digər millətləri arasında töhmətə məruz qalacaqlar.

Elmə, biliyə yiyələnməyi dinin birinci şərti hesab edən Rəşid bəy Əfəndizadə dinin elmlə pərvəriş tapıb möhkəmlənməsi fikrini təbliğ edirdi.Şairin fikrincə, qızların elmlərə yiyələnmələrinin qarşısını almaq dinin əsaslarına

ziyan vurmaqdan, onu nüfuzdan salmaqdan başqa bir şey deyildir.Rəşid bəy Əfəndizadə elm anlayışını hüquq anlayışı ilə bərabər tutur.Şair belə hesab ki, insanlar elmlərə yiyələnmədikcə hüquqlarını bilməzlər.

*Ya gərək elm alıb, gözün açasan,*
*Mərifət toxumun aləmə saçasan,*
*Ya gərəkdir ümidi qət edəsən,*
*Məclisi-dəhrdən çıxıb gedəsən* [5, s. 18-19].

Rəşid bəy Əfəndizadə poeziyasında, ümumiyyətlə, qadının ictimai mövqeyinə və təhsili məsələsinə həsr olunmuş bir silsilə şeir də vardır.Qadınların ağır həyatından şikayət, təhsilə, elmə çağırış bu şeirlərin əsas motivini təşkil edir ki, bunların qızlara həsr edilmiş əsərlərlə bir əlaqəsi yoxdur.Lakin bunların hamısında məntiqi bir rabitə mövcuddur. "Ana kimdir?", "Cənnətdə arvadlarımızın məqamı", "Arvadlarımıza nəsihət", "Anamıza xitab", "Qaragünlü arvadlarımızın halından şikayətdir", "Bacılara xitab", "Cənnətdə qadınların məqamı" və s. şeirlərində qadının cəmiyyətdəki yeri müxtəlif istiqamətdən işıqlandırılır.

*Qul olub, qul kimi yaşar bacılar,*
*Qul ana doğsa, qul doğar bacılar.*
*Olar əbnayi-millətin halı,*
*Qul məqamında hər bir əhvali* [5, s. 17].

Maarifin, məktəbin İslam xalqları üçün əhəmiyyətini yüksək dəyərləndirən müəllif ona mane olan qüvvələrin tənqidinə və tərəqqi yolundan dəf olunması işinə diqqət yetirirdi. O araşdırmalar apararaq bu yolda iki maneə tapıb üzə çıxarırdı:

*Bunun iki səbəbi var: biri avam anadır,*
*Biri də mollanüma rəhbəri camaat olur* [5, s. 21].

Maarifçi şair belə hesab edirdi ki, məktəblər açılsa, analar savadlansa, cəmiyyət tərəqqi yoluna düşər, yeni bir quruluş bərqərar olar."Analarımıza xitab" şeirində şair maariflənməyin əhəmiyyətini daha geniş miqyasda təsvir edib qiymətləndirir.Maariflənmək təkcə qadını əsarətdən qurtarmaqla məhdudlaşmır. Onun fikrincə, qadının əsarəti bütün müsəlmanlanın fəlakətinə səbəb olmuşdur.

*Get oxu elmini, avam qalma,*
*Başına öz əlinlə daş salma.*
*Nökər oğlu nökər adın alma,*
*Ar və namusu saxla, yalvarma* [5, s. 19].

Bütövlükdə, Rəşid bəy Əfəndizadə qadınları İslam tarixinin şanlı səhifələrindən ibrət dərsi almağa çağırırdı.Bu, həmin tarix idi ki, müsəlman əhalisinin əlində qələm xəncərdən iti və kəsərli idi.Bu isə toplumunhökmranlığını və tərəqqisini şərtləndirən əsas amillərdən biri idi.Məhz bunların sayəsində millət xoşbəxtliyə və firavanlığa nail olmuşdu.

` **Nəticə:** Təhlillərdən göründüyü kimi, bütövlükdə Rəşid bəy Əfəndizadənin maarifçi poeziyası istər forma, istər mövzu və ideya baxımından əlvandır, mənsub olduğu cəmiyyətin müxtəlif sahələrini əhatə edir.Maarifçilik onun zəngin poetik yaradıcılığının basilica istiqamətini təşkil edir. O, hansı mövzuda yazırsa yazsın, xalqın maariflənməsini, savada, biliyə yiyələnməsi zərurətini ön plana çəkir, bunsuz inkişafın, tərəqqinin mümkün olmadığını vurğulayır.

Müəllifin poeziyası müxtəlifmövzulara həsr olunmasına baxmayaraq, onları ümumi bir qayə – maarifçilik və islamçılıq ideyalan birləşdirir.Şair maarifçilik və islamçılığı Azərbaycan cəmiyyətinin böhrandan qurtarması üçün yeganə qurtuluş yolu kimi təbliğ edir.Rəşid bəy Əfəndizadənin şeirləri Azərbaycan poeziyasının ən yaxşı ənənələrinə söykənir, həmçinin novatorluğu ilə seçilir.

**Ədəbiyyat**


1. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası,–Bakı: Elm, –1998,– 460 s.
2. Bayramzadə Səkinə. Rəşid bəy Əfəndizadə, – Bakı: Nurlan, – 2007, – 128 s.
3. Əfəndizadə Rəşid. Bəsirətül-ətfal,– Bakı: Qubemiya idarəsi, – 1901, 120 s.
4. Əfəndizadə Rəşid. El ədəbiyyatı, yaxud el sözləri, "Azərbaycanı öyrənmə yolu", 1928, – № 1
5. Əfəndizadə Rəşid. Arvad məsələsi, – Tiflis: "Qeyrət" mətbəəsi, – 1912
6. Həbibbəyli İsa. XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası, Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, – Bakı: Nizami adına Ədəbiyyat İnstitutu, – 1980, 160 s.
7. Həsənqızı Almaz. Dilin yaddaşında əbədiləşən ənənələr, "Ana dili – milli varlığın təməli", Bakı: AVE Print, 2023, s. 231-249
8. Mürşüdova Ulduz. Rəşid bəy Əfəndizadə və folklor, – Bakı: Kooperasiya, – 2004, 108 s.
9. Sultanlı Vagif. Azerbaycan Halk Cumhuriyeti döneminde edebiyat, Azerbaycan Düşünce Tarihi, 1, Ankara: YTB Yayınları, – 2021, s.283-313
10. Sultanlı Vaqif. Azərbaycan ədəbi tənqidi, – Bakı: Nurlar, –2019, 312 s.
11. Zamanov Abbas. Əməl dostları, – Bakı: Yazıçı, – 1979, 388 s.
12. Теория литературы. Под редакцией Н.Д.Тамарченко. В 2 томах, том 1. – Москва: Издательство "Академия", – 2004, 513 с.
13. Тимофеев Л.И. Основы теории литературы, Москва: Просвещение, 1976, 447 с.


## Özət


XX yüzilin əvvəllərində Azərbaycan şeirində ədəbi ənənəyə münasibət və ondan özünəməxsus şəkildə bəhrələnmə maarifçi-realist səpkili əsərlərdə aşkar şəkildə duyulmaqdadır. Bəhs olunan dönəmdə maarifçi-realist poeziya tənqidi-realist və romantik şeirə nisbətən ayrıca istiqamət kimi mövcud olsa da, dövrün ədəbi axınları içərisində aparıcı mövqedə dayanmamışdır. Maarifçi realist şeirdə ənənə və novatorluq problemindən bəhs edərkən dövrün bir çox digər şairləri ilə yanaşı, Rəşid bəy Əfəndizadənin poeziyası da diqqəti çəkməkdədir. Çünki o, bir

tərəfdən realist ədəbiyyatın inkişafina xüsusi əhəmiyyət vermiş, dövrün maarifçilik hərəkatının öncüllərindən olmuş, digər tərəfdən bu ədəbiyyatın dəyərli örnəklərini yaratmışdır.Məqalədə Rəşid bəy Əfəndizadənin poeziyası ənənə və novatorluq müstəvisində təhlil obyektinə çevrilmişdir. Mövzu ilə bağlı ən mühüm qaynaqlardan təhlil prosesində bəhrələnilmişdir.
**Açar sözlər:** XX əsrAzərbaycan poeziyası, Rəşid bəy Əfəndizadə, ənənə və novatorluq.
**Keywords:** 20th century Azerbaijani poetry, Rashid bey Efendizadeh, tradition and innovation
**Ключевые слова:** азербайджанская поэзия XX века, Рашид бек Эфендизаде, традиция и новаторство.

## RASHID BEY EFFENDIZADE'S POETRY IN THE CONTEXT OF TRADITION AND INNOVATION

**Summary**

At the beginning of the 20th century, the attitude towards literary tradition and the unique benefit from it in Azerbaijani poetry are clearly felt in the works of the enlightener-realist style. Although enlightener-realist poetry existed as a separate direction compared to critical-realist and romantic poetry in the period under consideration, it did not occupy a leading position among the literary movements of the period. When discussing the problem of tradition and innovation in enlightener-realist poetry, along with many other poets of the period, the poetry of Rashid bey Effendizade also attracts attention. Because, on the one hand, he attached special importance to the development of realistic literature, was one of the pioneers of the enlightenment movement of the period, and on the other hand, he created valuable examples of this literature.

In the article, the poetry of Rashid bey Efendizadeh has become the object of analysis in terms of tradition and innovation. The most important sources related to the topic have been used in the analysis process.
.

## ПОЭЗИЯ РАШИД БЕК ЭФЕНДИЗАДЕ В КОНТЕКСТЕ ТРАДИЦИИ И НОВАТОРСТВА

**Резюме**

В начале XX века отношение к литературной традиции и уникальная польза от нее в азербайджанской поэзии отчетливо ощущаются в произведениях просветительско-реалистического стиля. Хотя просветительско-реалистическая поэзия в рассматриваемый период существовала как отдельное направление по сравнению с критико-реалистической и романтической поэзией, она не занимала ведущего положения среди литературных течений этого периода. При обсуждении проблемы традиций и новаторства в просвещенной реалистической поэзии обращает на себя внимание поэзия Рашид бека Эфендизаде, а также многих других поэтов того периода. Потому что, с одной стороны, он придавал особое значение развитию реалистической литературы, был одним из пионеров просветительского движения того времени, а с другой стороны, создал ценные образцы этой литературы.

В статье поэзия Рашид бека Эфендизаде стала объектом анализа с точки зрения традиций и новаторства. В процессе анализа были использованы наиболее важные источники по теме.

**RƏYÇİ: dos. S.Abbasova**